


**Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək**

**6-ci buraxılış, dekabr 2021-ci il**

**Mövzular**

- ✓ 5 yeni inzibati məlumat mənbəyinin SVDR proqram təminatına daxil edilməsi
- ✓ Yeni KOB hesabatının nəşrinin dəstəklənməsi
- ✓ SBS üzrə hədəflənən istehsal prosesi
- ✓ Təlim: Biznes sorğularının hazırlanması prosesi
- ✓ Təlim: KOB məlumatları və statistikası üzrə təhlil və proqnozlaşdırma üsulları
- ✓ Finlandiyaya tədris səfəri
- ✓ Layihə İdarəetmə Komitəsinin 6-ci İclası

✓ **Gələcək fəaliyyətlər**

- ✓ Finlandiyaya 2 tədris səfəri
- ✓ Litvaya tədris səfəri
- ✓ Təlim: Statistika hesabatlarının hazırlanması
- ✓ SBS məlumatlarının toplanılmasının inkişaf etdirilməsi
- ✓ SBS məlumatlarının emalı

## Layihə barədə

Aİ tərəfindən maliyyələşdirilən bu Tvinninq layihəsi (AZ/16/ENI/ST/01/19 (AZ/53)) Finlandiyanın Statistika İdarəsinin rəhbərlik etdiyi və Litvanın Statistika Departamenti və Niderland Mərkəzi Statistika Bürosunun kiçik tərəfdaş kimi daxil olduğu **konsorsium** tərəfindən həyata keçirilir. Həmçinin Danimarkanın Statistika İdarəsi və Finlandiyanın İctimai İdarəetmə İnstitutu layihəyə əlavə dəstək təmin edir.

**Əsas benefisiar təşkilatlar** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir. Tvinninq laihəsinin **ümumi məqsədi** Azərbaycanda özəl sektorun/kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılmasından ibarətdir.

**Nəşr etdi:** Tvinninq ofisi
**Ünvan:** İnşaatçılar prospekti 81, Bakı şəhəri, AZ 1136
Tel: +994 12 377 10 70
**Veb-səhifə: http://www.stat.fi/aztwinning**
**Bizi izləyin:**
**Xəbər bulletenimizə abunə olmaq istəyirsinizsə, gultakin.babayeva@stat.fi e-poçtuna müraciət göndərməyinizi xahiş edirik.**

# Layihə xəbərləri

12-15 oktyabr 2021-ci il tarixində "Statistik Vahidlərin Dövlət Reyestrinin proqram təminatına beş yeni inzibati məlumat mənbəyinin daxil edilməsi" adlı 3.2.B saylı Fəaliyyət baş tutmuşdur. Missiya Litva Statistika Departamentinin ekspertləri Nadejda Fursova və cənab Maksim Latanın iştirakı ilə Azərbaycan Respublikası Dövlət Statistikasının binasında həyata keçirilmişdir.

Missiyanın məqsədi beş yeni inzibati məlumat mənbəyinin rəsmi statistikanın istehsalı üçün əlavə edilməsi və yeni İM mənbələrinin, eləcə də onların Statistik Biznes Prosesinə inteqrasiyası imkanlarının təhlil edilməsindən ibarət olmuşdur. Dörd gün davam edən missiya ərzində qısamüddətli ekspertlər Litva Biznes Reyestri (BR), BR-də dəyişənlər və əhatə dairəsi, beynəlxalq standartlara uyğunluq və və BR-in əsas məhsullarına dair təqdimat edilər. Ekspertlər və onların BÖ-dən olan tərəf müqabilləri statistic BR-in idarə edilməsi və saxlanılması üçün tətbiq olunan prosedurların əsas xüsusiyyətlərini müzakirə etdirə və Litva Statistika Departamenti tərəfindən BR-in hazırlanması, yenilənməsi və saxlanılması üçün istifadə olunan mənbələri nəzərdən keçirdilər.

Fəaliyyət nəticəsində ekspertlər proses diaqramlarının və Biznes Statistikasının istehsalı üçün sənədləşmənin daha da inkişaf etdirilməsinə dair tövsiyələrin də daxil olduğu missiya hesabatı hazırladılar.





Finlandiya Statistika İdarəsindən xanım Ulla Virtanen və Danimarka Statistika İdarəsindən cənab Michael Elgaard Nielsen tərəfindən **5.4.B saylı Fəaliyyət** həyata keçirilmişdir. Missiyanın məqsədi DSK işçi heyəti ilə birlikdə statistika, qrafik, infoqrafik və şərhlərin daxil olduğu KOB hesabatının hazırlanması və təqdim edilmə olmuşdur. QME-lər və BÖ-dən tərəf müqabilləri iki il üzrə toplanmış məlumatları, cədvəllərin strukturlarını və məzmununu müzakirə etdilər və mövcud və yeni indikatorlar üzrə qrafiklər hazırladılar. QME-lər cədvəl, qrafik və təsviri/analitik mətnlərin hazırlanması üzrə təlimatlara dair təqdimat etdilər. Dörd günlük missiya nəticəsində, ekspertlər missiya hesabatı hazırladılar. Hesabatda yeniliklər, dəyişikliklərin idarə olunması və hazırda sorğular vasitəsilə toplanılan məlumatların İnzibati Məlumatlarla əvəzlənməsinə dair tövsiyələr verilmişdir.

Struktur Biznes Statistikası üçün istehsal prosesinin inkişafına həsr olunmuş **4.3.A saylı Fəaliyyət** 23-26 noyabr tarixlərində hibrid formatda həyata keçirilmişdir. Fəaliyyət ekspertlər-Jesper Moltrup-Nielsen (Danimarkanın Statistika İdarəsi) və Guus von de Burgt (Niderland Mərkəzi Statistika Bürosu) tərəfindən həyata keçirilmişdir. Mövcud səyahət məhdudiyyətlərinə səbəbindən cənab Burgt sessiyalara distant şəkildə qoşulmuşdur.

Missiyanın məqsədi mövcud inzibati mılumatlardan daha geniş istifadə etməklə Azərbaycanda SBS üçün standartlaşdırılmış istehsal prosesini planlaşdırmaq və istifadə olunan alətlərin standartlaşdırılması üçün tövsiyyələr verməkdən ibarət olmuşdur.

Qısamüddətli ekspertlər Ümumi Statistik Biznes Prosesi Modelini (GSBPM) təqdim etmiş və bu modeldən istifadə etməklə benefisiar qurumlardan olan mütəxəssislər ilə birlikdə yeni isthesal prosesini planlaşdırmışlar. İmputasiya çatışmayan müşahidələri əhatə etmək üçün istifadə oluna biləcək bir metod kimi təqdim edilmişdir. Bundan əlavə, statistik məlumatların açıqlanması üzrə tələblər nəzərdən keçirilmişdir. Qısamüddətli ekspertlər yeni istehsal prosesində mövcud proqram təminat vasitələrinə dair fikir mübadiləsi aparmış və bu missiyanın nəticəsi olaraq qısamüddətli və uzunmüddətli tövsiyyələr hazırlayıb təqdim etmişlər. İmputasiya ilə bağlı görüləcək işlər bütün iştirakçılar tərəfindən prioritet hesab olunmuş və növbəti missiyada bu məsələnin əhatə olunması qərara alınmışdır.

**Bu nəşrin məzmunu Avropa İttifaqının mövqeyini əks etdirmir**

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir



Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndələri 29 noyabr-3 dekabr tarixlərində Finlandiya Statistika İdarəsinin təşkilatçılığı ilə keçirilən **5 günlük tədris səfərində** iştirak ediblər. Bu tədris səfərinin məqsədi iştirak edən qurumların idarə heyətlərinin potensialının artırılmasından ibarət olmuşdur. Finlandiya Statistika İdarəsinin rəhbəri cənab Markus Sovala tədris səfərinin iştirakçıları ilə görüşmüş və BÖ rəsmiləri ilə Finlandiya Statistika İdarəsinin idarəetmə təcrübələrini müzakirə etmişdir.

Səfərin 3-cü günündə BÖ rəsmiləri Finlandiyanın Vergi İdarəsinə səfər ediblər. Finlandiya Vergi İdarəsinin işçiləri gəlir reyestri, kredit reyestri və məlumat xidmətləri ilə bağlı təqdimatlarla çıxış ediblər. Tədris səfərinin sonuncu günü Dövlət Statistika Komitəsi sədrinin müavini cənab Yusif Yusifov Finlandiya Statistika İdarəsinin studiyasında müsahibə vermişdir. Cənab Yusifov müsahibəsində benefisiar orqanlar üçün tvinninq layihəsinin əhəmiyyətini vurğulamış və gələcək əməkdaşlıq üçün tədris səfərinin vacibliyini qeyd etmişdir.



Biznes sorğularına dair istehsal prosesinə həsr **olunmuş 6.1.B saylı Fəaliyyət** 6-10 dekabr 2021-ci il tarixlərində hibrid formatda həyata keçirilimişdir. Təlimin əsas məqsədi Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən olan nümayəndələrin statistik tərtib, statistik təhlil, statistik hesabatların hazırlanması və məlumatların paylanması üzrə potensialının artırılması olmuşdur.

5 günlük təlim ərzində Finlandiya və Litva Statistika İdarələrindən olan qısamüddətli ekspertlər xanım Anna Potila-Kylakoski, cənab Vilppu Salovaara və cənab Tomas Rudys biznes sorğuları üzrə məlumat mənbələri, sorğuların tərtib olunmasına dair təcrübələr, biznes sorğularının yenilənməsi, populyasiya və seçmə üsullarının tərtib olunması, proqram təminatı və alətlər haqqında təqdimatlar etmiş və fikir mübadiləsi aparmışlar. “R” proqram təminatı vasitəsilə KOB məlumatlarının redaktə edilməsinin nəzəri əsasları təqdim edilmişdir.



KOB məlumatları və statistikası üçün təhlil və proqnozlaşdırma üsullarına həsr olunmuş **6.2.B saylı təlim** 13-17 dekabr 2021-ci tarixlərində hibrid formatda həyata keçirilmişdir. Fəaliyyət Finlandiya Statistika İdarəsinin ekpertləri cənab Timo Laukkanen, cənab Samu Hakala və cənab Henri Luomaranta tərəfindən aparılmışdır. Mövcud pandemiya məhdudiyyətləri səbəbindən cənab Hakala və cənab Luomaranta sessiyalara distant şəkildə qoşulmuşlar.

Təlimin məqsədi BÖ əməkdaşlarının statistik dizayn, təhlil, hesabatların hazırlanması və yayılması üzrə bilik və bacarıqlarının artırılmasıdır. Qısamüddətli ekspertlər məlumat mənbələri və KOB məlumatlarının/Biznes reystrinin tərtib olunması, Aİ tövsiyyələri: məlumatların təhlili və tənzimləmələr, KOB-ların proqnozlaşdırılması və mövcud vəziyyətin dəyərləndirilməsi üsulları və modelləri, mikroməlumatların əlaqələndirilməsi, Qlobal Dəyər Zəncirində müayinə modelləri haqqında təqdimatlarla çıxış etmişdirlər. 5 günlük təlim zamanı benefisiar qurumlardan olan nümayəndələr KOB məlumatları və statistikasına dair Avrostatın tələblərinə uyğun olan təhlil və proqnozlaşdırma üsullarının istifadəsini öyrənmiş və öz təcrübələrini ekspertlərlə bölüşmüşlər.



Tvinninq layihəsinin İdarəetmə Komitəsinin altıncı iclası hibrid formatda keçirilmişdir. 14 dekabr 2021-ci il tarixində baş tutan iclasda böyük və kiçik layihə rəhbərləri, Aİ Nümayəndəliyinin və Layihələrin İdarəedilməsi Ofisinin nümayəndələri, komponent rəhbərləri, Rezident Tvinninq müşaviri və BÖ-dən maraqlı tərəflər iştirak etmişdir. Layihənin nəticələri və icra zamanı rast gəlinən məhdudiyyətlər komitənin üzvləri tərəfindən müzakirə olunmuşdur. Layihə rəhbəri xanım Orjala qeyd etmişdir ki, növbəti rüb ərzində bütün fəaliyyətlərin ənənəvi formatda keçirilməsi və 2022-ci ilin ilk aylarında Üzv Ölkələrin statistika idarələrinə tədris səfərləri planlaşdırılmışdır. Həmçinin qeyd edilmişdir ki, səyahət məhdudiyyətləri planlaşdırılmış fəaliyyət və səfərlərin həyata keçirilməsinə manеə ola bilər.